

# Uğurlar göz önündədir...

**Azərbaycan dünyanın ən dinamik inkişaf etməkdə olan dövlətlərindəndir. Bu inkişaf sosial həyatın bütün sahələrini əhatə edir, qarşıya qoyulan vəzifələr uğurla icra olunur. Bu inkişaf dövlətin iqtisadi qüdrətini artırmaqla bərabər, onun beynəlxalq nüfuzunu da yüksəldir. Ölkəmizin uğurları ikitərəfli, çoxtərəfli müqavilələrin bağlanmasına vasitə olur.**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə iyulun 15-də keçirilmiş 2022-ci ilin altı ayının yekunlarına həsr olunan müşavirədəki nitqində dövlət başçısı olduqca mühüm məsələlərdən söhbət açdı. Bu məsələlər bilavasitə Azərbaycan dövlətçiliyinin daha da möhkəmləndirilməsi baxımından dəyərləndirilməlidir.

Azərbaycan dövlətinin nüfuzunun daha da artmasından söz düşmüşkən Qoşulmama Hərəkatına sədrlikdə qazanılan uğurlardan bəhs etməmək mümkün deyil. Məlum olduğu kimi, Azərbaycanın QH-yə sədrliyi 2023-cü ilə qədər bir il uzadılıb. Bu, onu göstərir ki, ölkəmiz 120 ölkə arasında çox böyük nüfuz qazanmışdır və bizə olan inam bu illər ərzində daha da artmışdır. Nəticələr də təsdiqləyir ki, Azərbaycan Qoşulmama Hərəkatının institusional inkişafına böyük töhfə verib. Qoşulmama Hərəkatı ilə bağlı bir məqam diqqəti çəkir: Bu il Bakıda Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin toplantısı keçirildi və Parlament Şəbəkəsi yaradıldı. Bakıda keçirilmiş bu önəmli tədbir göstərdi ki, QH-nin çox böyük potensialı var, həmrəyliyi dərinləşdirmək, əməkdaşlığı genişləndirmək və qarşılıqlı beynəlxalq dəstək üçün bu, çox önəmli platformadır. Bu platforma dövlətlərarası münasibətlərdə də olduqca əhəmiyyətlidir.

Dövlət bu və ya digər siyasi məsələ ilə bağlı öz münasibətini bildirir, fikir səsləndirir. Hər iki halda dünya ictimaiyyəti bunları vəd kimi qəbul edir. Verilən vədə əməl etməyən dövlətin malik olduğu siyasi nüfuzu azalır və getdikcə yoxa çıxır. Bu baxımdan dövlət öz mövqeyinə həmişə sadiq qalmalıdır. Azərbaycan bütün sahələr üzrə öz sözünə sədaqətli dövlətlərdəndir. Sədaqət nüfuz deməkdir, ehtiram, inam deməkdir.

Beynəlxalq miqyasda münasibətlər, əsasən, həm də bu amillə müəyyənləşdirilir. Azərbaycan dünyəvi münasibətlərin daha da formalaşmasında, dərinləşməsində, etibarlılığın artmasında böyük həmrəylik göstərir, iqtisadi baxımdan zəif dövlətlərə həssas iqtisadi dəstək göstərir. COVID-lə bağlı 80-dən çox ölkəyə göstərdiyimiz dəstək bizim beynəlxalq nüfuzumuzu böyük dərəcədə artırmışdır.

Bu və ya digər beynəlxalq təşkilatla münasibətlərin davam etdirilməsi, lazım gələrsə, yeni formatda formalaşdırılması dövlətçiliyə qayğıdır. Bu qayğı ulu öndərin azərbaycançılıq ideologiyasının tərkib hissələrindən biri kimi həmişə diqqət mərkəzindədir. Son illərdə, əsasən Vətən müharibəsində qazanılan zəfərdən sonra Avropa İttifaqı – Azərbaycan əlaqələrinin gələcək inkişafı ilə bağlı geniş müzakirələr aparılır. Artıq Avropa İttifaqı ilə Azərbaycan arasında önəmli sənəd – enerji təhlükəsizliyi ilə bağlı sənəd imzalandı və bu bizim əməkdaşlığımızı daha yüksək səviyyəyə qaldıracaqdır.

Azərbaycan istər amal, əqidə, istərsə də dil, din baxımından türk amilinə həmişə həssas yanaşıb. Ruh bağlılığı bu amilin başlıca qayəsi olub.

Türk Dövlətləri Təşkilatı çərçivəsində Azərbaycan hər zaman fəallıq göstərib. Bu fəallıq qarşılıqlı münasibətlərin daha da həssaslaşması ilə müşayiət olunur. Türk dövlətləri ilə əlaqələrin inkişafı prioritet məsələlərdən biridir və həm siyasi dəstək qarşılıqlı surətdə ifadə olunur, önəmli layihələr üzərində müzakirələr aparılır – həm ikitərəfli, həm çoxtərəfli formatda. Nəqliyyat, energetika, digər sahələr üzrə fəal əməkdaşlıq aparılır.

Mehriban qonşuluq sülhün, əmin-amanlığın başlıca şərtlərindəndir. Azərbaycan tolerant dövlət kimi həmişə sülh tərəfdarı olub. Qonşu ölkələrlə əlaqələrin inkişafı hər zaman əsas prioritetlərdən biri olub. Rusiya, İran, Gürcüstan prezidentləri ilə təşkil olunan görüşlər əlaqələrin inkişafı üçün zəmin yaradır. Bu görüşlər qarşılıqlı etimada əsaslanır ki, bu da Azərbaycanın yüksək siyasi nüfuza malik olmasının təsdiqidir.

ABŞ – Azərbaycan əlaqələrinin inkişafı istiqamətində önəmli addımlar atılmışdır. Yüksək vəzifəli




şəxslərin qarşılıqlı səfərləri təşkil edilmişdir. Amerika Birləşmiş Ştatlarının Prezidenti dövlət başçımıza son vaxtlarda iki dəfə məktub göndərmişdir – həm Müstəqillik Günü ilə bağlı, həm də Bakı Enerji Həftəsinin açılışı münasibətilə.

Beynəlxalq əlaqələr, bölgədə və bütövlükdə, dünyada aparılan siyasət Azərbaycana daxili problemləri daha uğurla həll etməyə imkan verir.

Ölkənin inkişafı bir-biri ilə əlaqəli amillərdən də asılıdır. Hər ölkənin özünəməxsus inkişaf xarakteri, dinamikası və inkişafa təsir göstərən arqumentləri var. Bu baxımdan daxili siyasətini düzgün aparmaq üçün hər dövlətə gərəkli müstəvi lazımdır. Bu müstəvi ilk növbədə qarşılıqlı etimada əsaslanan qonşuluqdur. Qonşuluğun timsalında dünyəvi münasibətdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi, cari ilin altı ayında Azərbaycan – Ermənistan əlaqələrinin normallaşdırılması istiqamətində müəyyən addımlar atılsa da, əfsuslar olsun ki, hələlik real nəticələr yoxdur. Baxmayaraq ki, Vətən müharibəsindən 1 il 8 ay ötüb, ancaq Ermənistan hələ də məcburən üzərinə götürdüyü öhdəliklərini yerinə yetirmir;

Məlum olduğu kimi, delimitasiya üzrə işçi qruplarının birinci görüşü keçirilmişdir. Biz bunu müsbət addım kimi qiymətləndiririk. Bu da ölkəmizin təşəbbüsü ilə baş vermiş hadisədir. Azərbaycan sərhədlərin delimitasiyası ilə bağlı addımların tezliklə atılmasına çalışır. Ermənistan tərəfi buna o qədər də meyilli deyil.

2020-ci il 10 noyabr Bəyannaməsinə görə, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa əlaqəsi qurulmalı idi, ancaq bu günə qədər bu imkan yaradılmadı. Laçın yolu açıqdır. 10 noyabr Bəyannaməsində biz öhdəlik götürmüşdük ki, Laçın yolu işləyəcək və Azərbaycan o yolun təhlükəsizliyinə zəmanət verir. Ölkəmiz bu öhdəliyə əməl edir. Amma Azərbaycanın əsas hissəsindən Naxçıvana getmək üçün imkan yoxdur. Ermənistan ərazisində bu istiqamətdə hansısa işlər görülmür. Niyə? Dünya dövlətləri buna ciddi münasibət bildirməlidirlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müşavirədəki nitqində dedi: "Son vaxtlar Ermənistan rəhbəri yenə də hansısa status haqqında danışmağa başlayıb. Halbuki, müharibəyə son qoyulanda, Ermənistan kapitulyasiya aktına məcburən imza atanda Azərbaycan, Rusiya, Ermənistanın rəhbərləri arasında şifahi razılaşma olmuşdur ki, status məsələsinə toxunulmayacaq. Ermənistan müəyyən müddət buna əməl edirdi. Ancaq son zamanlar artıq bu, adi hala çevrilib. Status haqqında danışmaq Ermənistan üçün çox təhlükəli məsələdir".

Dövlət başçısı Azərbaycan Ordusunun hazırkı vəziyyəti barədə danışarkən qeyd etdi ki, altı ay ərzində hərbi sahədə də islahatlar aparılıb. Həm struktur islahatları, həm də hərbi təhsildə islahatlar aparılıb. Təlimlərlə bağlı ciddi addımlar atılıb. Yeni silahlı birləşmələr yaradılıb. Yeni kontraktlar imzalanıb, hərbi texnika, silah-sursatlar alınır və alınacaq. Cari il artan iqtisadi və maliyyə imkanlarımızın bir hissəsi məhz bu məsələlərə istiqamətləndirilib. Artım məhz yüksək texnoloji imkanları olan silahların alınmasına xərclənəcək. Ən müasir hərbi texnika və silahların alınması üçün bu il dürüstləşmə zamanı hərbi xərclərimiz artıb. Qürurverici nailiyyətlərdir. Hər bir azərbaycanlının istəyini ifadə edən faktlardır.

Vətən müharibəsində qazanılan zəfər Azərbaycanın daha nurlu sabahlarına işıq salır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi faktlar ictimaiyyətin niyyətini ifadə edir: "Müharibədə qəhrəmanlıq göstərmiş hərbçilərin sosial problemləri daim diqqət mərkəzindədir. Müharibədə əlil olmuş, demək olar ki, bütün hərbçilər artıq ən müasir protezlərlə təmin olundular. Dördüncü nəsil protezlər – o protezlər ki, insan rahat yaşaya bilər, gəzə bilər, hətta futbol oynaya bilər, qaça bilər. Bu, çox bahalı texnikadır və o texnologiya elədir ki, vaxtaşırı dəyişdirilməlidir. Biz bunu edirik və edəcəyik. Çünki öz sağlamlığını itirmiş hərbçilər dövlət tərəfindən daim qayğı ilə əhatə olunmalıdır. Dövlət bunu edir və yerlərdə məmurlar da bunu heç vaxt unutmamalıdır".

Zəfər Vətən müharibəsinin sonu, ölkədə quruculuq işlərinin başlanğıcı oldu. Ölkə başçısının müvafiq sərəncamları ilə işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı quruculuq işləri başladı. Azərbaycan Prezidenti İlham Əliyev cari il iyul ayının 15-də keçirilmiş 2022-ci ilin altı ayının yekunlarına həsr olunan müşavirədəki nitqində bu barədə danışarkən dedi: "İşğaldan azad olunmuş ərazilərdə işlər planlı şəkildə aparılır. İnfrastruktur işləri – artıq yaşayış binalarının inşasına başlanılıb, Ağalı kəndi istifadəyə verilib, beş şəhərin Baş planı təsdiqlənib, yeni yaradılacaq kəndlərin yerləri müəyyən edilib. Bütün tender prosedurları keçir, şəffaflıq tam təmin olunur, heç bir inhisarçılıq olmamalıdır. Açıq tender prosedurları təmin edilir və ediləcək".

Qarabağ və Şərqi Zəngəzurla bağlı işlərlə yanaşı, ərzaq təhlükəsizliyi də vacib mühüm problemlərdəndir. Bu, problemlə nəinki ölkəmiz, artıq bütün dünya üzləşib. Əfsuslar olsun ki, Azərbaycan da taxılın idxalından böyük dərəcədə asılı olan ölkədir. Bu asılılığı aradan qaldırmaq üçün indi proqram hazırlanıb. Həm azad edilmiş torpaqlarda, həm də ölkəmizin digər yerlərində biz vaxt itirmədən, tezliklə taxıl istehsalını artırmalıyıq. Bu il heç vaxt istifadə olunmayan təqribən 100 min hektarda taxıl, yəni, buğda, arpa, dənli bitkilər əkiləcək. Bu da bizim ərzaq təhlükəsizliyimizi gücləndirəcəkdir.

Ölkə başçısı müşavirədə müsbət inkişaf ənənələrindən, müharibədən sonra bir çox şəhid ailələrinə və müharibə əlillərinə dövlət tərəfindən mənzillər verilməsindən, reabilitasiya mərkəzləri yaradılmasından onlarca müasir texnologiyalarla təchiz edilməsindən, azad edilmiş ərazilərdə böyük su anbarları və su kanallarının tikintisindən, habelə içməli su təchizatının da nəzərdə tutulmasından danışdı.

Ümumiyyətlə, 2022-ci ilin altı ayının yekunlarına həsr olunan müşavirə tarixiliyi, informasiyalılığı və qarşıya qoyulan məqsədlərin möhtəşəmliyinin ifadəsi baxımından son dərəcə gərəkli tədbir oldu.

***Səbinə XASAYEVA,***
***Milli Məclisin deputatı***